# Qərib Mehdinin "16-lar"ı təqdim olundu




Bu günlərdə AYB-nin Gəncə bölməsi və Gəncə şəhər Mərkəzi Kitabxanasının birgə təşəbbüsü ilə görkəmli yazıçı Qərib Mehdinin "16-lar" kitabının təqdimatı keçirildi.

Şair və yazıçılardan İnqilab İsaq, Fazil Sənan, Füzuli Səddinov, İlqar Müzəffəroğlu, Əlipolad, Cavanşir Ateşi, Zülal Əliyev, Balabəy Qədirov, Anar İlyasov, Aqşin Əsgərov, Almaz Yusifqızı, Mehdi Kərimov və başqaları çıxış edib kitabın orijinal tərtibata malik olduğunu qeyd etməklə, Qərib Mehdinin ümumi yaradıcılığından söz açdılar.

Tanınmış söz ustalarından Aləmzər Əlizadə, Nüşabə Əsəd Məmmədli, AYB Gəncə Bölməsinin sədri, şair-dramaturq Xəzangül, AYB Qazax Bölməsinin sədri Barat Vüsal, Zaur Quliyev, Aydın Murovdağlı, Xosrov Natil, Saleh Qurbanov, Eltun Türkel qeyd etdilər ki, Qərib Mehdi bu kitabdakı məqalələrində az sözlə çox şey deyib. O, bu yazılarla həm müəlliflərin özünü özünə tanıdıb (Aləmzər Əlizadənin deyimi), həm müəlliflərin kiçik həcmli yazılarında qazandıqları böyük uğurları oxuculara çatdırıb, həm də özünü bir daha tənqidçi-ədəbiyyatşünas kimi göstərib.

Sonra kitabın redaktorları yazıçı-publisist Ümbülbanu Hacıyeva, tənqidçi-publisist Firəngiz İdrisqızı "16-lar" kitabının məziyyətlərindən bəhs etdilər.

Əməkdar incəsənət xadimi Barat Vüsal da "16-lar" kitabı haqqında əhatəli çıxışının sonunda bir qədər geriyə - Qərib Mehdinin "Skripka üçün Mi simi" əsərində yaratdığı Prezident obrazının təhlilinə qayıtdı və göstərdi ki, yazıçı Qərib Mehdi bu əsərdə Prezidentin Qələbəyə aparan uzaqgörən siyasətinə inamını ifadə etməklə nə qədər də haqlı imiş.

Səmimi, emosional çıxışları, orijinal quruluşu ilə fərqlənən bu Qələbə ovqatlı təqdimat, mərasim iştirakçılarının birgə xatirə şəkilləri çəkdirməsi ilə bitdi.

*Firəngiz İDRISQIZI,*
*Gəncə*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 noyabr.- № 44.- S. 24.